Sentyabrın 12-də elm və təhsil naziri Emin Əmrullayev və “Times Higher Education” (THE) Beynəlxalq Reytinq Agentliyinin nümayəndələri arasında görüş keçirilib.

Görüşdə Azərbaycan ali təhsil müəssisələrinin THE reytinqlərində cari vəziyyəti ilə yanaşı, agentlik və nazirlik arasında növbəti əməkdaşlıq perspektivləri müzakirə edilib.

Müzakirənin yekununda "Times Higher Education” Beynəlxalq Reytinq Agentliyinin rəhbərliyi tərəfindən elm və təhsil nazirinə “THE Impact 2024” reytinqində 17 Dayanıqlı İnkişaf Məqsədinin hər biri üzrə Azərbaycan ali təhsil müəssisələrinin uğurlu nəticələrini əks etdirən sertifikat təqdim olunub.